# Əhaliyə avtomobil nəqliyyatı xidməti

**Daha bir il təqvimə çevrilir. Yola saldığımız 2015-ci ildə Dövlət Avtomobil Nəqliyyatı Xidmətində uğurlu nəticələrə imza atılmış, Prezident cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq nəqliyyat sektorunda mühüm işlər görülmüşdür.**

**Əməkdaşımız bununla əlaqədar olaraq, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Elnur Abdullayevlə görüşmüş və bir sıra məsələlərə aydınlıq gətirmişdir.**

**– Elnur müəllim, Azərbaycanda avtomobil nəqliyyatı ilə əhaliyə göstərilən xidmətlərin durumu hazırda necədir?**

– Bu gün müstəqil Azərbaycanımız yeni inkişaf dövrünü yaşayır. Ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycanın dövlətçilik ənənələri və ideyaları Prezident möhtərəm İlham Əliyevin rəhbərliyi altında yaşayır, uğurla davam etdirilir, möhkəmləndirilir.

Dərin minnətdarlıq hissi ilə bildirmək istəyirəm ki, nəqliyyat-yol kompleksinin inkişafına və ölkəmizin nəqliyyatçılarına möhtərəm cənab Prezidentimizin qayğısı və diqqəti nəticəsində nəqliyyat sahəsi respublikamızın sosial-iqtisadi inkişafında əhəmiyyətli mövqeyə sahib olmuşdur. Bu inkişafda avtomobil nəqliyyatının da xüsusi rolu vardır.

Son illər ərzində ölkəmizdə avtomobil nəqliyyatı özünün geniş inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu sahədə ölkə iqtisadiyyatının inkişafına əhəmiyyətli töhfələr vermişdir. Son 30-40 il ərzində, mən əldə etdiyim məlumatlara istinadən deyərdim ki, ulu öndərimizin və möhtərəm cənab Prezidentimiz İlham Əliyevin sayəsində nəqliyyat sahəsi öz inkişafının zirvəsinə çatmışdır. Ümumi respublika üzrə daşınan yüklərin 50%-dən çoxu və sərnişinlərin isə 74%-ə qədəri avtomobil nəqliyyatının üzərinə düşür. Məhz hazırda ölkə başçımızın rəhbərliyi altında aparılan ardıcıl nəqliyyat siyasətinə uyğun olaraq, daxili avtomobil daşımalarında və sahənin beynəlxalq nəqliyyat sisteminə inteqrasiya edilməsində nailiyyətlər əldə edilmiş və bu işlər böyük uğurla davam etdirilir. Hazırda qəbul edilən dövlət proqramları ilə müəyyən edilmiş tədbirlərə uyğun olaraq, avtomobil nəqliyyatı təsərrüfatlarında islahatların aparılması, yük və sərnişin daşıma proseslərinin təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübəyə əsaslanan müasir idarəetmə üsulları tətbiq edilir.

Xüsusilə diqqət yetirilməlidir ki, 2003-cü ildən başlayaraq nəqliyyat sistemində köklü islahatlar, sürətli inkişaf və yüksəliş dövrü başlamışdır.

Son illər, əsasən 2015-ci ilin ikinci yarısında avtomobil nəqliyyatı ilə yük və sərnişin daşımalarının təhlükəsizliyi, daşımaların ekoloji norma və tələbləri təmin edən yeni texnologiyalar əsasında təşkili və xidmət səviyyəsinin yüksəldilməsi, avtomobil nəqliyyatı infrastrukturunun yeniləşdirilməsi istiqamətində mühüm işlər aparılır.

Ölkəmizdə müasir nəqliyyat sisteminin formalaşdırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, daşımaların asanlaşdırılması və təşkilinin rahatlığı, təhlükəsizliyin təmin edilməsi, bütövlükdə avtomobil nəqliyyatı ilə xidmətlərə olan tələbatın keyfiyyətlə ödənilməsi və xidmət səviyyəsinin yüksəldilməsi bu gün davam etdirilir.

**– Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin bu qeyd etdiyiniz sahələrdə əsas fəaliyyəti konkret olaraq nədən ibarətdir?**

– Dövlət Avtomobil Nəqliyyatı Xidməti avtomobil nəqliyyatı sahəsində dövlət siyasətinin işlənib hazırlanmasında və bu sahədə normativ-hüquqi tənzimlənmənin həyata keçirilməsində iştirak edir, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının inkişafı sahəsində tədbirlər görür, beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı subyektləri tərəfindən beynəlxalq norma və qaydalara, həmçinin Azərbaycan Respublikasının normativ-hüquqi aktlarına riayət olunmasına nəzarət edir, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarının təşkili və bu sahədə dövlət sifarişinin formalaşdırılmasını təmin edir, avtomobil nəqliyyatı ilə daşımaların vahid norma və qaydalar əsasında təhlükəsiz yerinə yetirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görür, qanunvericilikdə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

Xidmət tərəfindən ölkəmizin şəhər və rayonlarında əhalinin avtomobil nəqliyyatı ilə daşımalara olan ehtiyacının təmin olunmasının təşkili, şəhərdaxili (hazırda Bakı və Sumqayıt şəhərləri istisna olmaqla), şəhərətrafı avtobus sərnişin daşımalarının tənzimlənməsi, daşıma xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, avtobus, taksi və yük daşımaları xidmətlərini göstərən hüquqi və fiziki şəxslərə qanunvericilikdə müəyyən olunmuş qaydada hüquqi münasibətlərin tənzimlənməsi üçün müvafiq işlər görülür.

Nəqliyyat sahəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar son zamanlar daha geniş vüsət almış, ölkə başçısı tərəfindən bu sahəyə göstərilən diqqət artırılmış və davamlı dəstək nəticəsində çoxsaylı islahatlar həyata keçirilmişdir.

Son aylar ərzində ölkəmizin bütün şəhər və rayonlarında, xüsusilə Bakı şəhərində əhalinin avtomobil nəqliyyatı ilə daşımalara olan ehtiyacının təmin olunmasının təşkili, şəhərdaxili, şəhərətrafı sərnişin daşımalarının avtobusla həyata keçirilməsinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi istiqamətində tərəfimizdən müvafiq işlər görülür.

**– Elnur müəllim, son zamanlar Bakı şəhərində əhaliyə sərnişindaşıma xidməti istiqamətində görülmüş işlər barədə ətraflı məlumatınız daha maraqlı olardı.**

– Öncə, Bakı şəhəri üzrə görülmüş işlərin konkret olaraq üzərində durmaq istəyirəm.

Bakı şəhəri ərazisində sərnişindaşıma fəaliyyəti göstərən avtonəqliyyat vasitələrinin "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın müddəalarına müvafiq olaraq, istismar edilməsi, ekoloji standartların tələblərinə uyğunluğunun, təsdiqlənmiş avtobus marşrut xətləri üzrə hərəkət edən avtobusların müəyyən edilmiş hərəkət cədvəlinə və hərəkət sxeminə riayət olunmasının araşdırılması ilə əlaqədar, əməkdaşlarımız tərəfindən mütəmadi olaraq tədbirlər keçirilir.

Nazirlər Kabinetinin 2014-cü il 03 aprel tarixli, 92 saylı qərarına əsasən Bakı şəhərində avtobus nəqliyyatı sahəsində beynəlxalq standartlara uyğun xidmətin təşkili və sərnişin daşımalarının yerinə yetirilməsi zamanı texniki və ekoloji baxımdan təhlükəsizliyin təmin edilməsi məqsədilə "İveco" markalı yeni avtobusların şəhər marşrut xətlərinə mərhələlərlə buraxılmasına başlanmışdır (1, 2, 3, 5, 6, 8, 14 saylı marşrut xətləri).

Eyni zamanda, Bakı şəhəri marşrut avtobus parkının yeniləşdirilməsi istiqamətində daşıyıcılar tərəfindən müəyyən işlər görülmüşdür. Belə ki, cari il ərzində istismarçılar tərəfindən 20 ədəd "İSUZU" CİTİBUS və 27 ədəd "KARSAN" markalı yeni avtobuslar alınaraq istismara verilmişdir.

Bakı şəhərində avtobus marşrut xətlərində aparılmış təkmilləşdirmə və optimallaşdırılma işləri nəticəsində hazırda 167 sayda avtobus marşrut xətti fəaliyyət göstərir. Bunlardan 69-u şəhərdaxili, 98-i isə şəhərətrafı və qəsəbələr arasıdır.

Bakı şəhərinin küçə və prospektlərində aparılan abadlaşdırma işləri ilə əlaqədar olaraq pasportlaşdırılmış 79 sayda taksi dayanacaq yerləri yenidən bərpa edilərək müvafiq "Taksi dayanacağı" nişanları ilə təchiz edilmişdir.

Paytaxda taksi dayanacaqlarına olan tələbatı nəzərə alaraq daha 93 sayda yeni taksi dayanacaqlarının yeri müəyyənləşdirilərək Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmışdır. Həmçinin bu dayanacaqların pasportlaşdırılması ilə bağlı müvafiq dövlət qurumlarına müraciətlər edilmişdir. Bu istiqamətdə işlər davam etdirilir.

**– I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi nəticəsində nəqliyyat-yol kompleksi üzrə, əsasən avtomobil nəqliyyatı ilə daşımalar sahəsində xeyli işlər görərək, müəyyən təcrübə əldə etdik. Hazırda 2016-cı ilin iyun ayında Formula-1 Qran Pri Avtomobil idman yarışmasına, həmçinin IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ilin may ayında keçirilməsinə hazırlıqlarla bağlı start verilmişdir. Bu istiqamətdə nə işlər görülmüşdür?**

– İlk növbədə onu bildirim ki, bir neçə gün əvvəl Təşkilat Komitəsində Formula-1 idman yarışı ilə əlaqədar Nəqliyyat Planının ilk versiyasının təqdimatı keçirilmiş, Xidmətin və onun strukturlarının, tabeli qurumlarının aidiyyəti əməkdaşları bu təqdimat mərasimində iştirak etmişlər. Nəqliyyat Planı ilə əlaqədar mütəxəssislərimiz öz təkliflərini bildirmişdir. Yəni artıq nəqliyyat işlərinin planlaşdırılmasına start verilmişdir. Mənə elə gəlir ki, 2016-cı ilin ilk günlərindən bu işlərin intensivliyi artacaqdır.

Digər mühüm tədbir olan IV İslam Həmrəyliyi Oyunlarına hazırlıqla əlaqədar nəqliyyat-yol kompleksi üzrə tədbirlər haqqında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin 2015-ci il 27 noyabr tarixli, Ə/Ü-49 nömrəli əmri ilə "Tədbirlər Planı" Nəqliyyat Nazirliyinin tövsiyəsi əsasında təsdiq olunmuşdur. Həmin "Tədbirlər Planı"nın icrası istiqamətində artıq hazırlıq işlərinə başlanılmışdır.

**– Hazırda qış mövsümü olduğundan mürəkkəb metroloji şəraitin yaranması hər an gözlənilir. Belə bir hava şəraiti yaranarsa, şəhər nəqliyyatında hansı tədbirlər görüləcəkdir?**

– 2015-2016-cı illərin payız-qış mövsümündə tabeli müəssisələrin və şəhər avtobus sərnişin daşımalarına cəlb olunmuş özəl sektorun nəqliyyat vasitələrinin marşrutlarda işinin normal səviyyədə təşkil edilməsi, eyni zamanda mövsümə hazırlıq mərhələsində və mürəkkəb metroloji şəraitdə (qarlı-şaxtalı) görüləcək işlərə rəhbərlik və koordinasiya məqsədi ilə qərargah yaradılmışdır.

Seçmə üsulu ilə şəhər sərnişin daşımalarına cəlb edilmiş müəssisə və marşrut xətlərində işləyən avtonəqliyyat vasitələrinə baxış keçirilməsinə başlanmışdır.

Keçirilmiş baxış zamanı marşrutlarda işləyən bir çox avtobuslarda mövsümlə bağlı bu və ya digər çatışmazlıq və qüsurlar (şinlərin yararsızlığı, şüşə təmizləyici mexanizm, şüşə təmizləyən silgəclər, qızdırıcı peçlərin işləməməsi, işıq sisteminin nasazlığı, arxa işıq sisteminin nasazlığı, qabaq şüşələrin çat olması və s.) aşkarlanmışdır. Qeyd edilən bu cür çatışmazlıq və qüsurlar əsasən buraxılış illəri köhnə olan avtobus nəqliyyat vasitələrində aşkar edilmişdir.

Aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün Təqdimatlar vasitəsilə hüquqi və fiziki şəxslərə "Tədbirlər Planı"nda nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinin təmin edilməsi ilə əlaqədar görülmüş işlər barədə məlumatın verilməsi tapşırıqları verilmişdir.

Həmçinin 2015-ci ilin dekabr ayından, ölkə ərazisində hava şəraitinin kəskin dəyişəcəyi ilə əlaqədar sərnişin daşımalarının fasiləsiz işinin, sərnişinlərin və hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə bütün hüquqi və fiziki şəxslərə tabeliklərində olan sürücülərin təlimatlandırılması və ekstremal hava şəraiti ilə bağlı məsul işçilərdən ibarət müəssisələrində növbətçilərin və növbətçilik cədvəllərinin tərtib edilməsi barədə rəsmi qaydada tapşırıqlar verilmişdir.

**– Sizin əvvəllər verdiyiniz müsahibələrdə Azərbaycanın beynəlxalq yük daşımalarını qəbul etməyə hazır olduğunu bildirmisiniz. Bununla əlaqədar və həmçinin Azərbaycan Respublikasının avtomobil nəqliyyatı kompleksinin beynəlxalq avtonəqliyyat sisteminə inteqrasiyası barədə ətraflı məlumatınızı dinləmək istərdik.**

– Azərbaycan Respublikasının avtomobil nəqliyyatı kompleksinin beynəlxalq avtomobil nəqliyyatı sisteminə inteqrasiyası, avtonəqliyyat əlaqələrinin və tranzit daşımaların hüquqi bazasının beynəlxalq normalara uyğunlaşdırılması, Asiya, Avropa və əsas dünya bazarları arasında beynəlxalq avtomobil daşımaları sahəsində əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi, yol infrastrukturun və beynəlxalq logistika mərkəzlərinin xidmətlərinin yaxşılaşdırılması, beynəlxalq nəqliyyat dəhlizlərində təhlükəsizlik səviyyəsinin yüksəldilməsi — respublikamızın avtomobil nəqliyyatı siyasətinin prioritet istiqamətləridir. Azərbaycan regional təhlükəsizlik və sabitlikdə mühüm rol oynayır. Azərbaycan ilə Avropa və Asiya ölkələrinin yüklərinin daşınmasında ölkəmizin tranzit potensialından istifadə edilməsi təsadüfü deyildir. Avropadan Asiya ölkələrinə və əksinə, beynəlxalq yükləri daşınmasında Azərbaycan Respublikası əlverişli geosiyasi mövqedə yerləşir.

Azərbaycan Respublikası beynəlxalq avtomobil əlaqələri sahəsində inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinə istinad edərək, 12 mühüm əhəmiyyətli beynəlxalq Konvensiya və Sazişlərə qoşulmuş, beynəlxalq avtomobil daşımaları prosesində qoşulduğu Konvensiya və Sazişlərin şərtlərinə və tələblərinə ciddi riayət edir.

Azərbaycan Respublikası 24 ölkə ilə beynəlxalq avtomobil əlaqələri sahəsində Hökumətlərarası Saziş imzalamışdır. Həmin ölkələr arasında həyata keçirilən beynəlxalq daşımalar Sazişlərə müəyyən edilmiş ikitərəfli və tranzit keçid, 3-cü ölkədən-ölkəyə daşımalar üçün "İcazə"lərlə, həmçinin Beynəlxalq Nəqliyyat Forumunun (BNF) təsis etdiyi çoxtərəfli "İcazə"lərlə, eyni zamanda hər bir ölkənin daxili qanunvericiliyinə uyğun olaraq yerinə yetirilir.

Azərbaycan Respublikası Beynəlxalq Nəqliyyat Forumu (BNF), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), Müstəqil Dövlətlər Birliyinin Nəqliyyat Əlaqələndirmə Müşavirəsi (NƏM), Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (İRU), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və s. nüfuzlu beynəlxalq təşkilatların üzvü olmaqla beynəlxalq avtomobil əlaqələri sahəsində onlarla əməkdaşlıq edir.

Avrasiya regionunda əlverişli geosiyasi məkanda yerləşən Azərbaycan Respublikası, Avropa-Qafqaz-Asiya vahid nəqliyyat sistemində nəhəng nəqliyyat qovşağıdır.

Bildiyiniz kimi, Azərbaycan Respublikasında iki iri nəqliyyat dəhlizləri kəsişir:

- Şimal-Cənub (Rusiya-Azərbaycan-İran-Yaxın Şərq ölkələri);
- Qərb-Şərq (Avropa ölkələri-Gürcüstan-Azərbaycan və Bərə vasitəsi ilə Xəzər dənizi-Mərkəzi Asiya ölkələri-Çin-Uzaq Şərq ölkələri).

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının "Beynəlxalq avtonəqliyyat xidmətlər bazarının inkişafının Əsas istiqamətləri" haqqında müvafiq Qərarında, beynəlxalq avtomobil dəhlizlərinin formalaşdırılması və inkişafı üçün zəruri tədbirlər görülmüş, respublikamızın aidiyyəti qurumları tərəfindən Qərarın icrası yerinə yetirilmiş və yetirilməkdədir.

Bunun nəticəsində hazırda Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərində istifadə edən xarici avtonəqliyyat vasitələrinin sayı 150 mini keçmişdir.

Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri tamamilə yenidən qurulmuş, Avropa standartları səviyyəsinə uyğunlaşdırılmışdır.

Respublikada Beynəlxalq nəqliyyat dəhlizləri ilə həyata keçirilən avtonəqliyyat daşımalarının şərtlərinin yaxşılaşdırılması və sadələşdirilməsi, nəqliyyat axınlarının idarə edilməsi, sərhədləri keçmə prosedurlarının əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi, daşımalarda süni manelərin aradan qaldırılması, avtomobil nəqliyyatının etibarlılığını və yol təhlükəsizliyinin yüksəldilməsi üçün əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (İRU) arasında Asiya, Avropa və əsas dünya bazarları arasında beynəlxalq avtomobil daşımalarının Azərbaycan Respublikası ərazisindən keçməklə inkişafı barədə, 2010-cu il martın 18-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına müsbət təsir göstərməklə, respublikamızın tranzit potensialının artırılmasını sürətləndirmişdir. Asiya və Avropa, həmçinin Dənizə çıxışı olmayan ölkələrin arasında ticarət əlaqələrinin inkişafına şərait yaradan beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına yönəlmiş - üç əsas Şimal, Mərkəzi, Cənub marşrutu olan, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının hazırladığı və həyata keçirdiyi "Yeni Avropa-Asiya avtomobil nəqliyyatı təşəbbüsü (NELTİ) layihəsinin Azərbaycan Respublikasının ərazisindən keçən Mərkəzi marşrutu digər iki marşruta nisbətən daha əlverişli hesab edilmişdir.

NELTİ layihəsi çərçivəsində Xəzər dənizində Bərə xətlərindən istifadə etməklə, Cənubi Qafqaz və Mərkəzi Asiyadan keçməklə Avropada Əfqanıstana avtomobil yük daşımalarının inkişafına xidmət edən "Əfqanıstan-Tranzit" layihəsi Azərbaycan Respublikasının ərazisində həyata keçirilir.



Avtomobil nəqliyyatı ilə yük daşımaları prosesinin bütün iştirakçıları üçün Avropa standartları səviyyəsində nəqliyyat-ekspedisiya və servis xidmətlərinin göstərilməsi, müasir daşıma texnologiyalarının tətbiqi, o cümlədən terminal sistemi üzrə yol nəqliyyat infrastrukturunun (terminallar, motel və kempinqlər, yanacaq doldurma stansiyaları, avtomobillərə texniki qulluq stansiyaları) yaradılması nəzərdə tutan Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (İRU) hazırladığı "Model şose təşəbbüsü" layihəsinin həyata keçirilməsini təmin edən amillərdir.

Beynəlxalq nəqliyyat dəhlizləri multimodal və intermodal daşımaların - yüklərin bir neçə növ nəqliyyat vasitələri ilə daşımalarının inkişafına şərait yaradır.

**– Beynəlxalq əməkdaşlıqla bağlı məsələləri qeyd etdiniz. Bu sahədə son dövrlərdə hansı işlər görülmüşdür?**

– Son dörd ay ərzində 4 ölkə ilə Belarus, Özbəkistan, Moldova və Türkiyə ilə ikitərəfli görüşlər keçirilmişdir. Özbəkistanla, Estoniya və Macarıstan ilə yeni sazişin imzalanması üçün hazırlıq tədbirləri görülərək Hökumətə təqdim edilmişdir.

Sazişlərin imzalanmasında, görüşlərin keçirilməsində əsas məqsəd Azərbaycanın beynəlxalq yük daşımaları sisteminə daha sıx inteqrasiyası və bu sahədə ölkəmizin rolunun artırılmasından, milli avtodaşıyıcılarımızın həmin ölkələrin avtonəqliyyat xidmətləri bazarında xüsusi çəkisinin artırılmasından ibarətdir.

Oktyabr ayının əvvəlində Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan, Türkiyə və Türkmənistanın nəqliyyat nazirliklərinin əməkdaşları, gömrük, sərhəd və digər qurumların nümayəndələrinin iştirakı ilə geniş müşavirə keçirilmişdir. Bildiyimiz kimi, Azərbaycan tarixi İpək Yolunun üzərində yerləşir. Regionun ən böyük limanı olan Yeni Beynəlxalq Dəniz Ticarət Limanının inşası bu yoldan keçən yük həcminin artmasına töhfə verəcəkdir.

Keçirilən müşavirədə Azərbaycandan tranzit keçən keçidlərin artırılması, rüsumların azaldılması, daha asan yoxlama prosedurları, daha asan keçidlərin təmin olunması ilə bağlı danışıqlar aparılmışdır.

Bundan başqa, bu gün dünyada ən böyük həcmdə yük ixracı olan Çin Xalq Respublikası ilə danışıqlar aparılmışdır, 2016-cı ilin birinci yarısında biz ÇXR ilə sazişin imzalanmasının baş tutacağına ümid edirik. Hazırda saziş Azərbaycan tərəfinin aidiyyəti nazirlikləri ilə razılaşdırıldıqdan sonra Çin tərəfə təqdim olunmuşdur.

Digər bir tədbirin keçirilməsini nəzərinizə çatdırmaq istəyirəm. Cari ilin dekabr ayının 23-də İran İslam Respublikasının Tehran şəhərində Xəzəryanı Dövlətlərin Nəqliyyat Nazirlərinin III Konfransı keçirilmişdir. Konfransda nəqliyyat naziri Ziya Məmmədovun rəhbərliyi ilə geniş nümayəndə heyəti iştirak etmişdir. Həmin tədbirdə də bir daha Xəzəryanı dövlətlər olan Azərbaycan, Rusiya Federasiyası, Qazaxıstan, Türkmənistan və İran İslam Respublikalarının ərazisində beynəlxalq daşımaları inkişaf etdirilməsi, bu sahədə mövcud manələrin aradan qaldırılması, tranzit daşımalara münbit şəraitin yaradılması və s. nəqliyyat əlaqələrinin daha da yaxşılaşdırılması müzakirə edilmiş, müvafiq qaydada sənədlər imzalanmışdır. Belə hesab edirik ki, bu tədbir də beynəlxalq nəqliyyat əlaqələrinin inkişafına öz töhfəsini verəcəkdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin cari ildə verdiyi Fərman və sərəncamları nəzərə alaraq 2016-cı ildə avtomobil nəqliyyatı sahəsində tranzit daşımalar, bir sözlə desək İpək yolunun bərpası ili olacağını əminliklə qeyd etmək istərdim.

**Müsahibəni hazırladı:**
**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**